# Xan qızı Natəvan

Mehdiqulu xan qızı Xurşidbanu Natəvan 6 avqust 1832-ci ildə Şuşada anadan olmuşdur. Mehdiqulu xan qızına öz anası Xurşidbanunun adını vermişdir. O, ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün onu sarayda "Dürrü yekta" (Tək inci), el arasında isə "Xan qızı" çağırmışlar.

Balaca Xurşidbanunun ilk tərbiyəçiləri sarayın təcrübəli dayə və mürəbbiyələri olmuşdular. Məktəb yaşına çatdıqda isə evdə dövrün alim və sənətkarlarından dərs almağa başlamışdır. Məşğələ zamanı Xurşidbanu Quran ayələrini və dini ehkamları əzbərləməklə yanaşı, dünyəvi elmlərlə də tanış olmuşdur. XIX əsrdə kübar ailələrin uşaqlarına bir qayda olaraq doğma dili ilə bərabər, ərəb və fars diləri, onların sərfi-nəvi təlim edildiyindən, Xan qızı da bu dilləri öyrənmiş, onların vasitəsilə klassik şeirin qayda-qanunlarını mənimsəmişdir. O, lazımi dərəcədə bilik əldə etdikdən sonra müntəzəm surətdə mütaliə ilə məşğul olmuşdur. Dahi şərq şairlərin ələ düşən nadir kitabları, qiymətli əlyazmaları Xurşidbanunu klassik ədəbiyyata bağlamışdır.

Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında yaxın və uzaq qohumlarının əməyi az olmamışdır. Qasım bəy Zakir, Mirzə Camal, Cavanşir Qarabaği, Mirzə Adıgözəl bəy Qarabaği, Əhməd bəy Cavanşir kimi hörmətli və tanınmış şəxsiyyətlər öz yaradıcılıqları, ədəbi söhbət və mübahisələri, eləcə də ağıllı məsləhətləri ilə Xurşidbanuda şeirə və sənətə olan şövq və həvəsi qüvvətləndirmişlər.

Tarixçilərin ehtimalına görə, bu dövrdə xarici və daxili vəziyyətin ciddi surətdə gərginləşməsi ilə əlaqədar xan ailələri üzərində nəzarət gücləndirilmiş və Xurşidbanu Xasay xan Usmiyevlə izdivaca məcbur edilmişdi. Belə bir ehtimal da vardır ki, Vorontsovun şəxsi yavəri Xasay bəy Tiflisdə onlara mülk iddialarında kömək göstərmiş və bunun müqabilində Xurşidbanuya evlənməyi təklif etmişdir. 1850-ci ilin payızında Xasay bəy Şuşaya gəlib toy etmiş və Xurşidbanunu Dağıstana — öz doğma kəndinə, oradan da Tiflisə aparmışdır.

Həyatının çiçək açdığı bir dövrdə Xurşidbanu Tiflisdə yaşamalı olmuşdur. Şəhərin səfalı yerləri, təbii mənzərələri ona xoş gəlsə də, burada yaşamağa məcbur olduğu və çox vaxtları tək qaldığı üçün sıxılmış, qəriblik çəkmişdir. Natəvan bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, özü də milli ənənəsi, kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə cəmiyyətlərdə maraq oyatmışdır. Bir sıra vilayət və şəhərlərə səyahətə çıxması Xurşidbanunun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan vermişdir.Vladiqafqaza, Dağıstana, Şirvana, Bakıya, Gəncəyə və Naxçıvana səfəri zamanı o, yüksək rütbəli dövlət qulluqçuları, yazıçı, alim və səyyahlarla görüşmüşdür.

1855-ci ildə Xurşidbanunun oğlu, 1856-cı ildə qızı dünyaya gəlmişdir. Oğlunun adını Mehdiqulu, qızının adını isə Xanbikə qoyurlar.

Xurşidbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olmuşdur. O, Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuşdur. Bu

fenomenin meydana gəlməsinin bir neçə əsas səbəbi vardır. Bunlardan birisi şairənin soy kökündür. Yəni, Natəvanda iki böyük nəslin – Cavanşirlərin və Ziyadoğlu-Qacarların qanı vardır. Adlarını çəkdiyimiz bu iki böyük və şərəfli nəslin hər birisi dünyaya bir sıra şair gətirmişdir (məsələn, Cavanşir nəslindən Əbülfət xan Tutinin, Qasım bəy Zakirin, Ziyadoğlu-Qacar nəslindən isə Ziyadi Qarabaği, Müsahib Gəncəvi və bir sıra başqa şairlərin adlarını çəkmək olar). Maraqlıdır, ki, Ziyadi Qarabaği və Musahib Gəncəvi vaxtilə Qarabağ bəylərbəyisi olmuşdurlar. Natəvan yaradıcılığının böyük tədqiqatçısı Bəylər Məmmədov "Natəvanın şair qohumları" kitabında (B., 1989) bu məsələni geniş açıqlayır. Eyni zamanda, Ziyadoğlu Qacar nəslindən çıxan şairlərdən söz başqa kitablarda da açılır. Füzuli adına Respublika Əlyazmalar İnstitutunun fondunda Müsahib Gəncəvinin şeir divanı saxlanılır və bu əsərin üzərində İnstitutun əməkdaşları elmi tədqiqatlar aparırlar.

Natəvanın qızı Xanbikə xanım da anasının yolunu davam etdirərək, qəzəllər və rübailər yazmışdır. Onun bir-neçə qəzəli Vasif Quliyevin "Dünənə uzanan cığır" (B., 2000) kitabında çap olunmuşdur. Bu kitabda göstərilir ki, Xanbikə xanım "Məclisi-üns"ün üzvlərindən biri olub.

Xurşidbanu Natəvan zəmanəsinin görkəmli şəxsiyyətlərindən olmuş, təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınmışdır. O, kasıblara əl tutmuş, 1873-cü ildə Şuşaya su kəmərini çəkdirmişdir: bu su kəməri indi də "Xan qızı bulağı" adı ilə məşhurdur. Natəvan Araz çayından Mil düzünə də su kəməri çəkməyə təşəbbüs etmişdir. 1858-ci ildə xoşbəxt bir təsadüf Bakıda məşhur fransız yazıçısı Aleksandr Düma ilə Xurşidbanunu rastlaşdırmışdır. Natəvanın həyat yoldaşı Xasay xanın fransız dilini yaxşı bilməsi onlar arasında dostluq telləri yaratmışdır. Onlar Abşeronda birgə gəzintiyə çıxmış, ayrılarkən bir-birinə qiymətli hədiyyələr təqdim etmişlər. Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumat da A. Dümanın "Qafqaza səyahət" kitabında öz əksini tapmışdır.

Natəvan ikinci dəfə 1869-cu ildə rəiyyət içərisindən çıxmış Seyid Hüseyn adlı bir şuşalıya ərə getmiş, bu hərəkəti ilə bəy və mülkədarları qəzəbləndirmişdir. Onlar Natəvanın ailə üzvləri arasına təfriqə salaraq, oğlu Mehdiqulu xanın evdən baş götürüb getməsinə müvəffəq olmuşlar. Şairə ömrü boyu qınaq və töhmətlərdən yaxa qurtara bilməmişdir.

XIX əsrdə Azərbaycan ədəbi mühiti bir sıra qüdrətli sənətkarlar, o cümlədən şairə qadınlar yetişdirmişdir: Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Aşıq Pəri və s. Natəvanın fitri istedadının üzə çıxması və çiçəklənməsinin səbəblərindən biri, Şuşanın təkraredilməz yaradıcı ab-havası və mühiti də olmuşdur.

Natəvan yaradıcılığa təxminən XIX əsrin 50-ci illərindən başlamışdır. İlk vaxtlar onun "Xurşid" imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır. 1870-ci ildən etibarən şairə özünə "Natəvan" (köməksiz, zəif, xəstə) təxəllüsü götürərək, dərin məzmunlu qəzəllərini yaratmışdır. Onun şeirləri hələ sağlığında dildən-dilə düşmüş, əlyazma şəklində yayılmışdır. Xurşidbanunun şeirlərini məzmun

cəhətdən şərti olaraq dörd qismə ayırmaq mümkündür: aşiqanə şeirlər, təbiət gözəlliklərinə həsr edilmiş şeirlər, müasirlərinə yazdığı mənzumələr, hüznlü şeirlər.

Xurşidbanu Natəvan yaradıcılığa 50-ci illərdən ənənəvi şərq mövzusu və şeirlərlə başlamışdır. Qəzəllərində məhəbbət, təbiət gözəllikləri ("Gülün", "Qərənfil" və s.) tərənnüm olunmuşdur. 16 yaşlı oğlunun ölümündən sonra Natəvan bədbin ruhlu şeirlər yazmışdır ("Ağlaram", "Olaydı", "Getdi", "Sənsiz", "Ölürəm" və s.). Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşma, rədif, məcaz və s. bədii vasitələr məharətlə işlənmişdir. M. N. Nəvvab, S. Ə. Şirvani və başqaları ona şeir həsr etmişlər.

Bəylər Məmmədov "Xurşidbanu Natəvan" kitabında yazır: "Hətta xatirələrdə Natəvanın "Xanlıq Şükür" adı ilə tanınan xidmətçisinə musiqi təlimi verməklə onu məşhur xanəndə etməsindən də danışılır". Özü də müəllif qeyd edir ki, bu haqda material Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin fondunda saxlanılır. Hal-hazırda bu materialın Füzuli adına Respublika Əlyazmalar İnstitutuna verildiyi barədə gümanlar var, lakin həmin materiallar hələlik tapılıb tədqiqata cəlb edilməmişdir.

Natəvanın poeziyası Azərbaycan xanəndələrini də ruhlandırır. Böyük sənətkarımız Seyid Şuşinskinin Natəvan haqqında xatirəsində qeyd olunur ki, o şairənin qəzəllərini "Segah" üstündə oxuyarmış və ondan bəri, demək olar ki, bu günə kimi tanınmış Azərbaycan xanəndələri şairənin qəzəllərini oxuyub, ilham alırlar. Natəvan poeziyası peşəkar Azərbaycan bəstəkarlarının əsərlərində də öz əksini tapır. Bunun parlaq misalı tanınmış bəstəkar Xalq artisti, professor Vasif Adıgözəlovun Natəvanın sözlərinə yazılmış məşhur "Qərənfil" mahnı-romansı ola bilər. Bəstəkar "Xan qızı Natəvan" operasını da yazmışdır.

1885-ci ildə ağır xəstəlikdən dünyasını dəyişmiş ikinci nikahdan doğulmuş Mirabbasın dərdi Natəvanı son dərəcə sarsıtmış və belə hal onun içində ovunması mümkün olmayan mənəvi-ruhi böhran yaratmışdır. Odur ki, Natəvan bütün kədər və qüssəsini "Yıxıb bu könlüm evin, eyləyib viran, getmə!" qəzəlində onun özünün ailə faciəsini xüsusi rənglərlə necə yaratmağa çalışdığını görürük:

Yıxıb bu könlüm evin, eyləyib viran getmə!

Yoxumdu tabu təvan, firqətə, cavan, getmə!

...Səninlə rövşən idi qəlbim, ey gözüm nuri!

Güman ki həng ola bu canıma cahan, getmə!

...Çıxaydı, kaş gözüm, görməyəydi hicranın,

Ölüncə, bil, edərəm, naləvü fəğan, getmə!

...Di yumma gözlərini, qoy görüm doyunca səni,

Gözümdə cari edib əşk, həm rəvan, getmə!

Natəvanın "Getdi", "Sənsiz", "Ölürəm", "Əlvida" və digər qəzəllərində də oğlu Mirabbasla bağlı dilə gətirdiyi nümunələrin poetik rəngləri, onlarda yer almış diqqətçəkici intonasiya son dərəcə orijinal, həm də üzücü təsir bağışlayır. Belə ovqatı biz Natəvanın "Getdi" qəzəlində daha aydın hiss edirik:

Nə yaxşı munis idi, heyif nagəhan getdi,

Məni bu möhnət əra qoydu əlaman, getdi.

O sərvi-nazdan ayrı baxarmı sərvə gözüm,

Hilaltək qəddimi eylədi kəman, getdi.

...Məni bu möhnət əra qoydu didəsi giryan,

Bəlayi-hicrə salıb, qoydu bağrı qan getdi.

Məzarın üstə gəlib əylənim dəmadəm, oğul,

Deyərmisən ki, nə növ ilə Natəvan getdi.

Natəvan sevimli və əziz oğlundan sonra yaşamağı sanki özünə rəva bilmir. Odur ki, heyifsilənərək oğlunun nagəhan gedib, anasını əlamanda qoyduğunu, didəsinin giryana qərq olduğunu, onu bəlayi-hicrə salıb, bağrını qan edib getdiyini, dərddən-kədərdən Mirabbasın məzarı üstünə gəlib "əyləndiyini" və özünün dünyadan necə köçəcəyini təsirli poetik boyalarla təsvir etdiyinin şahidi oluruq.

Bütün bunlar bir daha sübut edir ki, min bir bəlaya düçar olmuş Natəvanın lirik qəzəlləri onunçün həyatın mənasının necə itdiyini göstərir. Natəvanın "Ağlar", "Sənsiz", "Əfsus", "Ağlasın", "Olaydı" və digər bu kimi lirik parçalarında biz onun içini param-parça edən hisslərinin fəryad etdiyinin şahidi oluruq, elə "Sənsiz" qəzəlində olduğu kimi:

Mənə bədtərdi düzəxdən,

əzizim, gülistan sənsiz!

Olur hər sünbili-süsən

gözümdə bir tikan sənsiz!

...Əliftək sərv qəddin,

can içində getdi, qəmxarim!

Necə aram tutsun, bilməzəm,

cism içrə can sənsiz?

...Nəzər qıl, qönçeyi-lalə

misalı bir-biri üstən

Çəkilmiş sinəmə, gör kim,

necə daği-nəhan sənsiz!

Klassik Azərbaycan ədəbiyyatının yorulmaz tədqiqatçısı Firidun bəy Köçərli özünün "Azərbaycan ədəbiyyatı" kitabındakı "Xurşidbanu Natəvan" adlı müxtəsərində yaradıcılığı ilə bağlı təqdiredici fikirlər söyləməklə, onun son dərəcə ağıllı və tərbiyəli, bənzərsiz poetik zövqə malik olduğunu söyləmişdir. Bundan başqa, onun Mirzə Rəhim Fəna və Qasım bəy Zakir hecasına pozitiv təsir edib, onların yaradıcılıq dəst-xəttini cilaladığını da dilə gətirmişdir.

Natəvanın qəzəllərinə rus şairləri də maraq göstərmişdir. 30-cu illərdən başlayaraq Azərbaycan poeziyasının qədirbilənləri Marqarita Aliger və Yevgeni Dolmatovski şairin bir neçə poetik nümunəsini V.Luqovskoy və S.Vurğunun redaktorluğu ilə 1939-cu ildə Moskvada nəşr olunmuş "Azərbaycan poeziyası antologiyası"nda rus oxucularına çatdırmışdılar. Bundan xeyli sonra bakılı rus şairi Abram Plavnik 1982-ci ildə Natəvanınn lirikasını daha geniş tutumda rusdilli oxuculara təqdim etmişdir. 2009-cu ildə isə Anarın baş redaktorluğu ilə Bakıda nəşr olunmuş "Azərbaycan poeziyası antologiyası"nın birinci cildində (prof. Həsən Quliyevin tərtib etdiyi bu kitabda) Natəvanın qəzəlləri M.Aliger, L.Qlebova, Y.Dolmatovski və A.Plavnikin tərcümələrində təqdim olunmuşdur.

Natəvanın yaradıcılıq fəaliyyəti təkcə şeirlə bitmir. O rəssamlıqla da məşğul olurdu, həmçinin, onun nəfis əl işləri, müxtəlif janrda tikmələr bacarığı da olmuşdur. Onun bədii tikmələri "Gül dəftəri" (1886) adlı albomundakı rəsmlər buna sübutdur. Yaradıcılıqla bərabər Xan qızının ictimai və idarəetmə fəaliyyətini qeyd etmək olar (təsadüfi deyil ki, qohumlar arasında Xurşidbanuya "Dürrü yekta", yəni, tək inci, xanlığın yeganə varisi deyərmişlər). Natəvanın xeyirxahlığı və xeyriyyəçiliyi də gözə çarpır. Bəylər Məmmədov "Xurşidbanu Natəvan" əsərində göstərir ki, Şuşanın bir qrup şairləri bədii məclisi təşkil edilməsinin zəruriyyətini dərk edirdilər. Lakin, məclis düzəltmək üçün şərait və imkan yox idi. Ziyalılar yalnız Xan qızının köməyinə ümid edirdilər. Xan qızı bu şairlərin təklifini məmnuniyyətlə qəbul etmiş və nəticədə qısa bir müddətdə Şuşada "Məclisi-üns" (yəni, dostluq, ülfət məclisi) yarandı. Bu məclisə rəhbərliyi və onun bütün xərclərini Xan qızı öz üzərinə götürmüşdür. Təsadüfi deyil ki, Bəylər Məmmədov öz əsərlərin birində Natəvanı "Məclisi-üns"ün ürəyi adlandırırdı. Şuşada Mir Möhsün Nəvvab Qarabağinin rəhbərliyi ilə

"Məclisi-fəramuşan" adlı daha bir poetik məclis də fəaliyyət göstərirdi. Məhz bu zaman Xurşidbanu (şairə öz nənəsinin adını daşıyırdı, o da Gəncəli Cavad xan Ziyadoğlu-Qacarın doğma bacısı idi) "Natəvan", yəni, "kimsəsiz", "köməksiz" təxəllüsünü özünə götürmüşdür. "Məclisi-üns"də tanınmış Qarabağ şairləri ilə yanaşı məşhur xanəndə və sazəndələr də iştirak etmişlər. Bunlardan Hacı Hüsü, Məşədi İsi, Molla Vəli, Molla Abbasqulu, Meşədi Dadaş, Əbdülqəni və Sadıqcanın (Sadıq Əsəd oğlunun) adlarını çəkə bilərik. Məşhur tarzən Qurban Pirimov yazırdı: "Xurşidbanu nəinki şeir, eləcə də musiqini çox sevirdi. Xanəndələrdən Hacı Hüsü və Meşədi İsi onun məclisində oxuyardılar. Bu xanəndə oxuyarkən Natəvanın qəzəllərindən tez-tez istifadə edərdilər. Son vaxtlara qədər Cabbar onun qəzəllərini öz repertuarında saxlardı". Füzuli adına Respublika Əlyazmalar İnstitutun fondunda saxlanılan Mir-Həsən Ağamirovun "Natəvan haqqında xatirələrdə" (inv. 1788) qeyd olunur ki, Natəvanın hər bir məclisində musiqiçilər iştirak edirdilər, Natəvanın bəzi məclisləri isə sırf musiqi məclisi hesab olunurdu və burada Natəvanın qəzəlləri də oxunurdu.

Şəxsi münasibətlərin, dövranın haqsızlığı, zalımların sitəmi şairi vaxtsız qocaltmış, onu həyat işığına həsrət qoymuşdur. Ağlamaqdan gözlərinin nuru getmiş, bədəni taqətdən düşmüşdür. Xurşidbanu Natəvan 1897-ci il, 1 oktyabrda vəfat etmişdir və Ağdamın "İmarət" qəbiristanlığında dəfn olunmuşdur.

Ağdam rayonu işğaldan azad olunandan sonra, məlum olmuşdur ki, ermənilər tərəfindən Natəvanın məqbərəsi dağıdılmış, qəbiri isə təhqir olunmuşdur, qazılıb və sümükləri də qəbrindən çıxarılıb aparılmışdır. Bu haqda məşhur fransız fotojurnalisti Rza Diqqəti məlumat da dərc etmişdir, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi də bu faktı təsdiqləmişdir.